**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

**Əlyazması hüququnda**

**MEHMET ALİ OĞLU ÇINAR**

# ÜMUMTƏHSİL MƏKTƏB ŞAGİRDLƏRİNDƏ ƏXLAQİ-MƏNƏVİ DƏYƏRLƏRİN FORMALAŞDIRILMASININ İMKAN VƏ YOLLARI (TÜRKİYƏ VƏ AZƏRBAYCAN MƏKTƏBLƏRİNİN MATERİALLARI ƏSASINDA )

5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

**B A K I – 2 0 1 5**

Dissertasiya işi Bakı Slavyan Universitetinin pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, əməkdar müəllim*

**Rəsmi opponentlər:** **Sərdar Musa oğlu Quliyev**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, əməkdar müəllim*

**Şikar Əli oğlu Hüseynov**
*pedaqogika üzrə fəlsəfə doktoru*

**Aparıcı təşkilat:** Azərbaycan Müəllimlər İnstitutunun Pedaqogika kafedrası

Müdafiə " 24 " noyabr 2015-ci ildə saat _____ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ___" __________ 2015-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi:** **K.R.Quliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Şəxsiyyətin formalaşdırılması prosesində əxlaqi-mənəvi dəyərlərin rolu çox böyükdür. İnsan təbiətin, ailənin, cəmiyyətin və mühitin məhsulu olduğundan, onun həyatda qazandığı və onun üçün nəzərdə tutulan davranış və həyat normaları, mövcud adət-ənənələr fərdin şəxsiyyətə çevrilərkən tərbiyə olunma prosesində mühüm əhəmiyyət daşıyır.

İnsanın gələcək həyat üçün hazırlanmasında əxlaqi-mənəvi dəyərlərin formalaşdırılması və onlardan istifadə olunması bütün zamanlarda aktuallıq kəsb etmişdir.

Kökü, dili, inancı, bir çox adət-ənənəsi eyni kökdən olan Türkiyə və Azərbaycan xalqları əxlaqi-mənəvi dəyərləri həmişə diqqət mərkəzində saxlamışlar. Hər iki xalqın şifahi xalq ədəbiyyatı nümunələrindən başlayaraq, müasir dövr ədəbi nümunələrində, bir sıra mədəniyyət abidələrində əxlaqi-mənəvi dəyərlərin tərbiyəsi önə çıxarılmış və bu məsələlər kamil insan yetişdirmək üçün xalqın vuran əlinə, döyünən ürəyinə, düşünən beyninə çevrilmişdir.

Bu gün Azərbaycan-Türkiyə mədəni-mənəvi əlaqələrinin ən mühüm əhəmiyyət kəsb edən və nəticələri daha aydın görünən istiqamətlərindən biri və bəlkə də birincisi təhsil sahəsidir. Hər iki ölkənin milli liderləri olan Mustafa Kamal Atatürk və Heydər Əliyev tövsiyə etmişlər ki, ümumbəşəri dəyərlər, Azərbaycan və Türk xalqlarının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir, gənclər milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlər əsasında tərbiyələnməlidirlər. Onlar böyüməkdə olan nəslin öz tarixini, doğma dillərini, milli ənənələrini, milli dəyərlərini yaxşı bilməsinin vacibliyini hər zaman təbliğ etmişlər. Məhz onların yürütdüyü düzgün siyasətin nəticəsidir ki, əxlaqi-mənəvi dəyərlərin gənc nəslin tərbiyəsində tətbiqi sahəsində Azərbaycan-Türkiyə əlaqələri çox böyük inkişaf tempi qazanmaqdadır.

Əxlaqi-mənəvi tərbiyə sahəsində zəngin təcrübənin və müəyyən araşdırmaların olmasına baxmayaraq, Azərbaycan-Türkiyə məktəblərində bu problemin tədqiqi sahəsində işlər olduqca azdır. Ümumtəhsil məktəbi şagirdlərində əxlaqi-mənəvi dəyərlərin formalaşdırılmasının imkan və yolları (Türkiyə və Azərbaycan məktəb materialları əsasında) məsələsi indiyədək geniş tədqiq edilməmişdir. Doğrudur, bu məsələ ilə əlaqədar bir sıra elmi araşdırılmalarda səthi məlumatlar olsa da, problemin sistemli, məqsədyönlü tədqiqinə rast gəlinmir. İndiyədək müdafiə olunmuş pedaqoji

elmi-tədqiqat materialları arasında Polad Yadulla oğlu Mədədovun "Azərbaycan özəl türk məktəblərinin formalaşması və inkişafı" mövzusunda (2008), Rəşad Qabil oğlu Babayevin "Fiziki tərbiyə fənninin tədrisi prosesində yeniyetmələrin milli-mənəvi tərbiyəsi üzrə işin imkanları və yolları" mövzusunda (2010-cu), İbrahim Yusuf oğlu Kurtun "Azərbaycan və Türkiyə uşaq ədəbiyyatında mənəvi tərbiyə məsələləri" mövzusunda (2010), Sobren Kandi Farhad İsmail oğlu "Təlim prosesində ibtidai sinif şagirdlərinin islam mənəvi dəyərləri əsasında tərbiyə olunması" mövzusunda (2011), Mənzurə Qardaşxan qızı İsmayılovanın "Folklor materiallarından istifadə şagirdlərin mənəvi tərbiyəsinin vasitələrindən biri kimi (Şirvan folklor materialları əsasında)" mövzusunda (2012), Həbibə Əyyub qızı Məhərrəmovanın "N.Tusinin pedaqoji irsindən istifadənin V-XI sinif şagirdlərinin əxlaq tərbiyəsinə təsiri" mövzusunda (2012), Ertaş Hasan oğlu Sofuoğlunun "Yeniyetmələrin dünyagörüşünün formalaşmasında islam dəyərlərindən istifadə üzrə işin sistemi" mövzusunda (2014) müdafiə etdiyi dissertasiyalarda şagirdlərin əxlaqi-mənəvi tərbiyəsi məsələlərinə bu və ya başqa yöndən müraciət edilmişdir. Lakin bütün bunlar, yuxarıda da qeyd edildiyi kimi, bizim tədqiqatımızda olduğu qədər sistemli xarakter daşımamışdır.

Bu baxımdan ilk dəfə belə bir tədqiqatın aparılması tərəfimizdən məqsədəuyğun hesab edilmişdir. Çünki Türkiyə və Azərbaycan əlaqələrinin daha da möhkəmləndiyi hazırkı dövrdə əxlaqi-mənəvi dəyərlərin formalaşdırılmasının imkanları və yolları ilə bağlı qarşılıqlı təcrübələrin müqayisəli şəkildə öyrənilməsinə ehtiyac hiss edilir. Araşdırılmış tədqiqat işi də məhz bu ehtiyacdan yaranmışdır.

Tədqiqat apararkən tarixi gerçəkliklər və təcrübəyə müraciət edilmişdir, çünki tarixi, milli-mənəvi kökləri eyni olan xalqlar kimi Türkiyədə də, Azərbaycanda da əxlaqi-mənəvi tərbiyə məsələləri eyni kökdən qaynaqlanır və tarixən paralel inkişaf yolu keçmişdir. Bu baxımdan biz dissertasiya mövzusunu konkret olaraq "Ümumtəhsil məktəb şagirdlərində əxlaqi-mənəvi dəyərlərin formalaşdırılmasının imkan və yolları (Türkiyə və Azərbaycan məktəb materialları əsasında )" adlandırdıq.

**Tədqiqatın obyekti** şagirdlərin əxlaqi-mənəvi tərbiyəsi prosesidir.

**Tədqiqatın predmetini** Türkiyə və Azərbaycan məktəblərinin materialları əsasında ümumtəhsil məktəb şagirdlərində əxlaqi-mənəvi dəyərlərin formalaşdırılmasının imkan və yolları təşkil edir.

**Tədqiqatın məqsədi** Azərbaycan-Türkiyə məktəblərində şagirdlərin əxlaqi-mənəvi tərbiyəsi məsələlərinin tarixi baxımdan araşdırılması, Azərbaycan və Türkiyədə həyata keçirilən təhsil islahatlarında şagirdlərin

əxlaqi-mənəvi tərbiyəsinin sənədlərdə, dərslik və dərs vəsaitlərində əks etdirilmə üsullarının öyrənilməsi, Azərbaycanda və Türkiyədə əxlaqi-mənəvi tərbiyə sahəsində problemlər və onların aradan qaldırılması yollarının müəyyən edilməsidir.

**Tədqiqatın fərziyyəsi.** Türkiyə və Azərbaycan təhsilində əxlaqi-mənəvi dəyərlərin aşılanması tarixi baxımdan müqayisəli şəkildə öyrənilərsə, hər iki təhsil sistemində əxlaqi-mənəvi tərbiyə sahəsindəki fərqli və oxşar cəhətlər aşkarlanar; Türkiyə və Azərbaycanda aparılan təhsil islahatları fonunda şagirdlərdə əxlaqi-mənəvi dəyərlərin formalaşdırılmasının imkan və yolları araşdırılarsa, milli dəyərlərin, milli adət və ənənələrin yaşadılması mənzərəsi üzə çıxar; mövzu üzrə problemlər və onların həlli yolları hər iki ölkədə həyata keçirilən təhsil islahatları, dövlət sənədləri, dərslik və dərs vəsaitləri vasitəsilə araşdırılarsa, gənc nəslin tərbiyəsində əxlaqi dəyərlərə verilən qiymət özünü ətraflı və tam şəkildə göstərər.

**Tədqiqatın məqsədini** həyata keçirmək üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Azərbaycan-Türkiyə məktəblərində şagirdlərin əxlaqi-mənəvi tərbiyəsinin vəzifələri və ortaq cəhətlərinin tarixilik baxımından müəyyən edilməsi;
- Müasir Azərbaycan və Türkiyə məktəblərində şagirdlərin əxlaqi-mənəvi tərbiyəsinə münasibətin yenilənməsinin zərurət olduğunun sübut edilməsi;
- Azərbaycan və Türkiyədə həyata keçirilən təhsil islahatlarında şagirdlərin əxlaqi-mənəvi tərbiyəsinin sənədlərdə, dərslik və dərs vəsaitlərində ifadəsi səviyyəsinin göstərilməsi;
- Azərbaycanda və Türkiyədə əxlaqi-mənəvi tərbiyə sahəsində problemlər və onların aradan qaldırılmasının imkan və yollarının araşdırılması.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı aşağıdakı tədqiqat metodlarından istifadə olunmuşdur: nəzəri və tarixi-müqayisəli təhlil, məktəb təcrübəsinin öyrənilməsi, alınan nəticələrin ümumiləşdirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatda Azərbaycanda və Türkiyədə əxlaqi-mənəvi tərbiyə sahəsində tarixi inkişaf mərhələləri, mövcud vəziyyət, hər iki ölkədə aparılan təhsil islahatları və burada əxlaqi-mənəvi dəyərlərin yeri müəyyənləşdirilir, müqayisəli pedaqogika sahəsində elmi yanaşma təqdim edilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiya işində Türkiyə və Azərbaycan məktəb şagirdlərinin əxlaqi-mənəvi tərbiyəsi üzrə irəli sürülən müddəalardan tərbiyə nəzəriyyəsinin təkmilləşdirilməsində və tarixinin araşdırılmasında istifadə oluna bilər.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın nəticələrindən elmi işçilər, ali məktəb tələbələri, pedaqoji işlə məşğul olanlar və maraqlanan hər kəs istifadə edə bilər.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- Azərbaycan və Türkiyə xalqlarının əxlaqi-mənəvi dəyərləri eyni kökdən qaynaqlanır;
- Azərbaycan və Türkiyə xalqlarının ortaq əxlaqi-mənəvi dəyərləri hər iki respublika məktəblilərinin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır;
- Azərbaycan və Türkiyə xalqlarının əxlaqi-mənəvi dəyərlərinin inkişaf etdirilməsi hər iki ölkənin təhsil siyasətinin prioritet istiqamətlərindən biridir;
- Azərbaycan və Türkiyə xalqlarının əxlaqi-mənəvi dəyərləri ümumbəşəri dəyərlərin tərkib hissəsidir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işinin mövzusu ilə bağlı aparılan təhlil və araşdırmalar beynəlxalq və ümumresbuplika elmi-praktik konfranslarda məruzə edilmiş və Ali Attestasiya Komissiyanın tövsiyə etdiyi jurnallarda məqalə və tezislər şəklində çap olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, hər biri müvafiq yarımfəsillərə bölünmüş iki fəsil, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT İŞİNİN MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, fərziyyəsi, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan əsas müddəalar, öz əksini tapır, istifadə olunmuş tədqiqat metodları göstərilir.

**Tədqiqat işinin "Azərbaycan-Türkiyə məktəblərində şagirdlərin əxlaqi-mənəvi tərbiyəsinin vəzifələri və ortaq cəhətləri"** adlanan I fəsli üç yarımfəsildən ibarətdir.

Birinci yarımfəsil ***"Azərbaycan-Türkiyə məktəblərində əxlaqi-mənəvi tərbiyə tarixindən (Qədim və orta əsrlər)"*** adlanır və adından da göründüyü kimi, hər iki ölkədə qədim və orta əsrlərdə fəaliyyət göstərmiş tədris müəssisələri və burada gənc nəslə aşılanan əxlaqi-mənəvi tərbiyə

məsələləri işıqlandırılır. Burada göstərilir ki, müasir insanın şəxsiyyət kimi formalaşmasında tərbiyənin mühüm rolu vardır. Tədqiqatçı-alim, professor Ə. Ağayevin fikrincə, "insan mənəvi-ruhi tərbiyə, əxlaqi və etik tərbiyə, iradə və xarakterin tərbiyəsi baxımından tərbiyə olunarsa, o, şəxsiyyət bütövlüyünə yiyələnə bilər."[1]

Türklərin, o cümlədən Azərbaycan türklərinin də dastanlarında, folklor nümunələrində, məsələn, atalar sözləri və nağıllarında, bayatı və laylalarında insanın mənəvi kamilliyi, məhəbbətin ülvi bir hiss kimi insanı gözəlləşdirməsi, ona yüksək əxlaqi keyfiyyətlər aşılaması, insanda zülmə, istismara nifrət oyatması, hakimlərin ədalətsizliyinə qarşı mübarizə aparması mühüm yer tutur. Şübhəsiz ki, bütün bu əxlaqi dəyərlər, mənəvi gözəllik hissləri hələ məktəbin, inkişaf etmiş təhsil sisteminin olmadığı bir dövrdə gənc nəslin təlim və tərbiyəsində mühüm rol oynamış, onların dostluğa, verdiyi sözə sədaqətli, vətənpərvər bir insan kimi yetişməsinə kömək etmişdir.

O dövrdə Azərbaycanda dövlət siyasəti səviyyəsində təhsil verən ocaqlarda-məktəblərdə əsas sənəd, "Avesta" idi. Burada Kainatın tərkibi-yer, göy, okean, işıq, dağ və dənizlərin zaman daxilində yaranmasına, cənnət, həqiqət, xeyir, sülh, əməksevərlik və s. fəlsəfi, sosial, etik və estetik məsələlərə toxunulurdu. Orta fars mənbələri "frahangestan" adlanan məktəblərin çoxsaylılığını təsdiq edir. "Kavadın oğlu Xosrov və cavan" əsərində (VI əsr) adlı-sanlı ailələrdən olan cavanların bu məktəblərdə necə oxumasından ətraflı danışılır. Məlum olur ki, ilk növbədə onlara "Avesta"nın əsas hissələri və eləcə də "Avesta" nın orta fars tərcümələri və onun Şərhləri - Zənd öyrədilirdi.[2]

Tədris fənləri sırasına bədii ədəbiyyat, tarix, ritorika və astronomiya daxil idi. Hər bir gənc at sürmək, ox atmaq və nizə tullamaq məharətinə malik olmalı idi. Tədris kursuna şahmat, dama, top oyunlarının öyrədilməsi də daxil idi. Bədii sənətin öyrədilməsinə, mahnı oxumaq və musiqi alətlərində (simli kifara və sitrada) çalmaq bacarığına da az əhəmiyyət verilmirdi. Beləliklə, frahangestanda təhsilini başa vuran cavan dünyəvi və hərbi həyata hazır olurdu. Kahinlik məktəbi "herbedestan" termini ilə ifadə olunurdu. Bu məktəblərdə kahinlər (herbedlər) xavit termini ilə ifadə olunan şagirdlərə dərs deyirdilər. Bu şagirdlər öz təhsil haqlarını özləri ödəyirdilər. Tədris prosesində Avesta və Zənd mətnləri əzbər öyrədilir,

---

[1]Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005, s.251
[2]Azərbaycan tarixi. C.II. Bakı, Elm, 2005, s.104.

Qataların dürüst yadda saxlanmasına xüsusi fikir verilirdi. Zərdüşt məktəblərində öyrədilirdi ki, insan həmişə mülayim, xoşxasiyyət, adil və xeyirxah, fitnə-fəsaddan, qəddarlıqdan, paxıllıqdan, yalançılıqdan uzaq olmalıdır. O, cəmiyyətin fəal üzvü kimi əkinçiliklə, maldarlıqla məşğul olmalı, bataqlıqları qurudub onun məhsuldar torpağa çevrilməsinə səy göstərməlidir. Zərdüşt məktəblərində yetişən gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinə xüsusi diqqət və əhəmiyət verilirdi. Belə ki, zərdüştlüyün əxlaqi idealı xeyirxahlıq, ədalət, yaxşılıq olduğundan Zərdüşt təlimində yaxşılıq və pislik anlayışı kəskin şəkildə qoyulur və bunların mahiyyəti açılır: "Anlayan adam gərək pisi deyil, yaxşını seçə" fikri irəli sürülür".[1]

XI-XII əsrlər bütün İslam şərqində olduğu kimi, Azərbaycanda da elmin, təhsilin, maarifin-bütövlükdə mədəniyyətin inkişafında əsl intibah mərhələsi olmuşdur.

Azərbaycanda ərəb istilasından sonra ilk məscid məktəbləri VII əsrdən mövcuddur. Bu mədrəsələrin təməli ərəblərin Azərbaycana hücum etməsindən sonra qoyulmağa başlayır. Ərəblər öz siyasətlərini həyata keçirmək üçün məktəblər açmağa və orada bu siyasəti həyata keçirməyə qabil insanlar tərbiyə etməyə çalışırdılar. O zamanlar riyaziyyat, fəlsəfə, tibb, məntiq, əxlaq, coğrafiya, nəhv, musiqi və s. fənlər üzrə ərəb dilinə tərcümə edilmiş yunan elmi əsərlərindən geniş istifadə olunurdu. Həmin əsərlərdən Azərbaycanda uzun zaman dərs vəsaiti kimi istifadə edilmişdir.

Qədim dövrlərə nisbətən, orta əsrlərdə məktəb və mədrəsələrdə canlanma hiss edilir. XI əsrdən fars dili poeziya dili kimi formalaşmağa başlayır. Məktəb və mədrəsələr məscidlərin nəzdində yaradılır və burada, əsasən, mollalar və dini təhsil almış insanlar dərs deyirdilər. Bu məktəblərdə əvvəlcə ərəb əlifbası, sonra isə Quran tədris olunurdu. İslamın ilk dövrlərində "Quran-ı-Kərim" bütün elmləri, ictimai-siyasi həyatın ən mühüm problemlərindən, cəmiyyəti düşündürən və narahat edən məsələlərin cavabını, müsəlman icmasının əsas hüquqi məsələlərini əhatə edən yeganə nüfuzlu mənbə hesab olunurdu.

Quranın gətirdiyi davranış və ədəb-ərkan qaydaları hər bir cəmiyyətdə, hər bir dövrdə tərbiyə işinin məqsədlərini müəyyən edən qaydalardır. Quran yalnız dini kitab deyil, hər şeydən əvvəl, tərbiyə kitabıdır. XII əsrin axırlarından başlayaraq, Azərbaycanda məktəb və mədrəsə təhsili keçmiş əsrlərə nisbətən sürətlə inkişaf etməyə başlamış, XIII əsrin axırları və XIV əsrin əvvəllərində nisbətən yüksək səviyyəyə çatmışdır. Azərbaycanın keçmiş məktəbləri haqqında ilk dəqiq və geniş məlumat da həmin dövrə

---

[1]Azərbaycan tarixi. C.II. Bakı, Elm, 2005, s.48.

aiddir. Əldə olan məxəzlərdə XII-XIII əsrlərdə Azərbaycanda yetişən alim və şairlərdən çoxlarının öz doğma şəhərlərində məktəb və mükəmməl mədrəsə təhsili almaları qeyd edilmişdir. XII əsrdə mədrəsələr, əsasən, Təbriz, Marağa, Naxçıvan və Gəncə şəhərlərində mərkəzləşir. Bu dövrdə Şamaxı yaxınlığındakı Məlhəm kəndində Kafiəddin Ömər ibn Osmanın başçılığı ilə tibb mədrəsəsi fəaliyyət göstərir. XII əsrdə Azərbaycanda məktəb şəbəkəsi xeyli genişlənmişdir.

Orta əsrlərdə bütün Şərqdə olduğu kimi, Türkiyə və Azərbaycanda da təhsil və təhsildə əxlaqi-mənəvi dəyərlər müqəddəs kitabımız olan "Quran-i-Kərim"ə əsaslanırdı. Azərbaycanlıların çox vaxt türk-islam dəyərləri adlandırılan əxlaq qaydaları toplusunun özəyi orta əsrlərdəki türk hərbi-feodal şərəf kodeksinin təsiri altında formalaşmışdı. XIII-XV əsrlərdə Təbrizdə Rəşidiyyə, Qiyasiyyə, Qazaniyyə, Fələkiyyə, Dəməşqiyyə, Məqsudiyyə, Müzəffəriyyə, Nəsriyyə mədrəsələri, Bakıda Şirvanşahlar sarayının Şah məscidi nəzdindəki mədrəsə və Seyid Yəhya mədrəsəsi, Ərdəbildə Darül-İrşad, Dərbənddə məhəllə məscidi yanındakı mədrəsə, Naxçıvanda Mömünə xatın türbəsi komplekslərindəki mədrəsələr fəaliyyət göstərirdi. Nizamiyyə ali mədrəsəsindən sonra müsəlman Şərqində ikinci böyük ali məktəb sayılan, Təbriz yaxınlığındakı Rəbi-Rəşidi şəhərciyində yerləşən Rəşidiyyə mədrəsəsi təqribən 1300-1304-cü illərdə təsis edilmişdi. Bu mədrəsə XIV əsrdə Yaxın və Orta Şərqin ən böyük ali təhsil müəssisəsi sayılırdı və onun əsası görkəmli Azərbaycan tarixçisi və dövlət xadimi Fəzlullah Rəşiddədin tərəfindən qoyulmuşdu. Burada din, fəlsəfə, təbiiyyat, nücum fakültələri ilə bərabər, tibb şöbəsi də var idi. "Rəbe Rəşidi"nin müxtəlif fakültələrində tədrislə 450-dən çox müəllim məşğul olurdu və cəmi 7000 tələbə təhsil alırdı.

XIII əsrdən başlayaraq məscidlər yanında fəaliyyət göstərən "yetimlər evi", "təlim evi" adlanan xeyriyyə müəssisələri də ibtidai təhsil verən məktəblər şəbəkəsinə daxil idi. Bu dövrdə böyük Azərbaycan alimi N.Tusi tərəfindən Marağa rəsədxanası nəzdində yaradılan "Böyük riyaziyyat məktəbi" adlandırılan mədrəsə fəaliyyət göstərirdi.[1]

XIII-XV əsrlərin təhsil tarixində iz qoymuş tədris ocaqlarından biri də böyük Azərbaycan alimi Nəsirəddin Tusi tərəfindən yaradılmış, Yaxın və Orta Şərqin ən məşhur rəsədxanası kimi 50 ilə yaxın fəaliyyət göstərmiş Marağa rəsədxanasının (1259) nəzdindəki mədrəsə idi. "Böyük riyaziyyat məktəbi" adlandırılan bu mədrəsədə bir çox ölkələrdən gəlmiş müdavimlər təhsil alır, elmi araşdırmalar aparırdılar. Burada N.Tusinin "Elxani

---

[1] Quliyev Ə.Q. Azərbaycan təhsili XIII-XVIII əsrlərdə. Bakı: Təhsil, 2004, s.67.

cədvəlləri”, “Evklidin şərhi”, “Əxlaqi- Nasiri” və s. əsərlərindən də dərs vəsaiti kimi istifadə olunurdu.

Qeyd etmək lazımdır ki, XIII əsrin axırları və XIV əsrin əvvəlləri Azərbaycanda Məhəmməd Qazan xanın hakimiyyəti dövrünə təsadüf edir. Elm və sənətə dərin rəğbət bəsləyən Qazan xanın özü hərtərəfli inkişaf etmiş bir hökmdar olmuşdur. Onun dövründə yaranmış şərait XIII əsrin axırları və XIV əsrin əvvəllərində Azərbaycanda elm, mədəni-maarif işlərinin inkişafı üçün imkanların xeyli genişlənməsinə təsir etmişdir. Azərbaycanda təsis edilən mühüm elmi mərkəzlər və təlim-tərbiyə ocaqlarından biri də Qazan xanın təşəbbüsü ilə 1302-ci ildə Təbrizin yaxınlığında Şam adlanan yerdə tikilmiş və “Şənb Qazan” adı ilə məşhur olmuşdur. Orta əsr məxəzlərində Şənb Qazanda gözəl mədrəsələr mövcud olduğu qeyd edilmişdir.

Orta əsrlərdə geniş yayılmış sufilik təliminin də özünəməxsus təlim strukturu var idi. Bu dövrdə özünün yüksəliş dövrünü yaşayan sufilik təlimində hər hansı bir təriqətə qəbul və təriqətdə müəyyən mərtəbəyə yüksəlmək ancaq sufi mürşidlərinin rəhbərliyi ilə verdiyi təlim və tərbiyə əsasında həyata keçirilirdi.

Osmanlı türklərinin Səlcuqlardan əvvəl Orta Asiya və Xorasan bölgələrindən Qərbə köç etmələri və Anadoluda yerləşmələri V-XI əsrlərin ən mühüm hadisələrindəndir. Bu oğuz köçləri Anadoluda yeni bir türk yurdu yaranmasına və İslam dünyası coğrafiyasının qəti olaraq genişlənməsinə yol açdı.

Səlcuqların hakimiyyəti dövründə elmə, maarifə böyük diqqət verilirdi. İslam dünyasında təhsil və elm sahəsində dönüş nöqtəsi təşkil edən Səlcuqi dövründə ilk dəfə nizamlı dərs proqramları müəyyən edilmiş, zəngin kitabxanalar açılmış və ilk pulsuz təhsil verən Nizamiyyə mədrəsəsi açılmışdır. Nizamiyyə mədrəsəsindəki dərs proqramları və öyrədilən mövzular daha sonra başda Osmanlı dövləti olmaqla, bütün İslam dünyasında əsrlərlə davam etdirilmişdir.

Osmanlıların ilk ibtidai məktəb səviyyəsindəki təhsil ocaqları “sibyan məktəbləri” və ya “məhəllə məktəbləri” adlanırdı. Sibyan məktəblərinə “məktəb” və ya “”küttab”, yoxsul uşaqları üçün açılanlara isə “küttab-ı sebil” və ya “məktəb-i sebil” deyilirdi. Adından ehtimal olunduğu kimi, burada əvvəllər sadəcə olaraq, yazı öyrədilirdi. Lakin sonralar İslami biliklərin əsaslarını da tədris etməyə başladılar. Şagirdlərə oxumağı və yazmağı öyrətməklə yanaşı əxlaqi tərbiyənin verilməsi də nəzərdə tutulurdu. Uşağı şərdən çəkindirmək və xeyrə sövq etmək Osmanlı cəmiyyətinin təhsil fəlsəfəsiydi.

Osmanlı dövlətinin yaranması və möhkəmlənməsi illərində əldə olunan ən böyük nailiyyət ölkənin hər yerində türk dilinin hakim dilə çevrilməsi oldu. Osman Qazının hakimiyyəti dövründən başlayaraq, türk dilinə olan meyl sürətlə genişləndi. XIV əsrin əvvəllərindən etibarən, ölkədən gedən bütün rəsmi yazışmalar, dövlətin qəbul etdiyi fərmanlar, məktəb və mədrəsələrdə təlim-tərbiyə işləri türk dilində həyata keçirilməyə başlandı.[1] XIV-XV əsrlərdə Kiçik Asiyanın bütün iri şəhərlərində məktəb və mədrəsələr yaradıldı. Xüsusilə, Orxan Qazının, II Muradın, İldırım Bəyazidin, I Sultan Məhəmmədin, II Muradın hakimiyyətləri dövründə ölkədə məktəb və mədrəsələrin şəbəkəsi xeyli genişləndirildi. Mədrəsə sistemi çox qədim zamanlardan mövcud olan məscid məktəblərinin bir növ davamıdır. Məscidin bir hücrəsində dərslər üçün ayrılan yerlər mədrəsə adlanırdı.

VIII-XIV əsrlərdə mədrəsələr say çoxluğu etibarilə Anadoluda toplanmışdı. Bu dövrdə Misir, Fələstin və Suriya kimi İslam mədəniyyət mərkəzlərində yaranmış mədrəsələrdən fərqli olaraq, Anadolu mədrəsələri daha geniş bir ərazidə yayılmışdı. Anadolu, Konya, Mərdin, Kayseri, Diyarbəkir, Ərzurum torpaqlarında fəaliyyət göstərən təhsil müəssisələrinə Misirdən, Orta Asiyadan, Suriyadan, İrandan çoxlu alimlər dəvət edilmişdi. Bu elm və tədris ocaqlarında şəriət dərsləri ilə yanaşı, dünyəvi elmlər də tədris olunurdu. Mədrəsə və məktəblərdə insanın yaradıcılıq potensialını təmin edən mənəvi və fiziki qüvvələr ahəngdar bir surətdə əlaqələndirilirdi. Mənəvi-əxlaq tərbiyəsi adı altında milli köklərə və dini qanunlara əsasən gənc nəslin xeyir və şər, yaxşı və pis, ədalətli və ədalətsiz işlərə, hərəkətlərə münasibətlərinin formalaşdırılması və bu münasibətlərə uyğun adətlərin yaradılması prosesi gedirdi.

Orta əsrlərin Şərqində fəaliyyət göstərən elm və təhsil ocaqları cəmiyyətin və hakim dinin mövcud əxlaq normalarının gənc nəslə mənimsədilməsinə, yaranmış situasiyada düzgün fəaliyyət üçün yol göstərilməsinə və dünyanın elmi-fəlsəfi baxımdan dərk edilməsinə kömək edirdi.

Beləliklə, həm Azərbaycan, həm də Türkiyənin milli təhsilində mənəvi-əxlaqi dəyərlərin inkişafı və formalaşmasında İslamın mühüm rol oynamışdır. Hər iki xalqın mədəni və maarif əlaqələrinin tarixi və milli-mənəvi kökləri bir-biri ilə qırılmaz surətdə bağlı olan bir sıra amillərlə şərtlənirdi.

---

[1] Qüdrətov D.H. Türk xalqlarının tarixi. Bakı: Şirvannəşr, 2004, s.388.

Birinci fəslin ***"XVIII-XIX əsrlərdə Azərbaycan və Türkiyə təhsil sistemində əxlaqi-mənəvi tərbiyə məsələləri"*** adlanan ikinci yarımfəsli XVIII-XIX əsrlərdə Azərbaycan və Türkiyə təhsil sistemində əxlaqi-mənəvi tərbiyənin aşılanması məsələlərinə həsr olunmuşdur. Bu yarımfəsildən aydın olur ki, həmin mərhələdə Azərbaycanda məktəblər bütün Şərq ölkələrində olduğu kimi məscidlərin bir guşəsində, xüsusi dükanlarda, yaxud şəxsi evlərdə yerləşir və adətən, onların yaradıcılarının, müəllimlərin adı ilə adlandırılırdı. Məsələn, Azərbaycanın Qıraq Salahlı kəndində Molla Cəbrayıl məktəbi, Şıxlı kəndində Molla Vəli Vidadi məktəbi, Şuşa şəhərində Molla Pənah Vaqif məktəbi və digərləri fəaliyyət göstərirdi.

Məktəbdə, adətən, ancaq bir müəllim olurdu və o həm də məktəbin rəisi-məktəbdar idi. Məktəbdarlar məktəb binasına və s. çəkdikləri xərc müqabilində, habelə tədris haqqı kimi şagirdlərin valideynlərindən hər həftə ("həftəlik") pul, peşkəş, bayramlıq və s. alırdılar. Şagirdlər əlifbanı öyrəndikdən sonra Quranın "Cüzəmmə" adlı kiçik bir hissəsini, sonra isə Quranı oxuyub başa çatdırır, habelə Sədinin "Gülüstan"ını, "Bustan"ını və digər kitabları oxuyurdular. Tələbə mədrəsədə çərəkəni, Quranı öyrənməklə yanaşı, islam fəlsəfəsi, fiqh (islam hüququ), ərəb-fars dillərini də öyrənirdi. Mədrəsələrdə müəyyən dərəcədə ədəbiyyat, riyaziyyat, nücum (astronomiya) elmləri də tədris olunurdu. Fənlərin müxtəlifliyinə baxmayaraq, onların hamısı bir müdərris tərəfindən tədris olunurdu.

XIX əsrin ikinci yarısında milli ideologiyanın əsas prinsiplərinə çevrilən ideyaları, sözün həqiqi mənasında, millətin gündəliyinə gətirən M.F.Axundzadə, H.B.Zərdabi və Ş.C.Əfqanidir. Onların milli əməlləri sayəsində milli özünüdərk prosesi milli ideyaların yaranmasına səbəb oldu. Başqa sözlə, Qafqaz Azərbaycanında milli ideologiyanın təzahürlərinin meydana çıxmasında və Qərb mədəniyyətinin bu bölgədə yayılmasında onların böyük rolu oldu. Azərbaycanın Rusiya tərəfindən işğalından sonra ideologiyamızın təşəkkülündə yeni bir proses-Şərq və Qərb dəyərlərinin sintezi başlanır. Bunu maarifçi ideologiya adlandırmaq olar. Azərbaycanın zadəgan ziyalı təbəqəsinin bir hissəsi XIX əsrdə təhsil almaq üçün İslam ölkələrinə, digər hissəsi isə Rusiyaya və Avropaya gedirdi. Sonuncular təhsil aldıqları ölkələrdə dil və elmlə bərabər həmin ölkələrin mənəvi-mədəni dəyərlərinə yiyələnir və vətənə qayıtdıqda bu dəyərləri öz milli dəyərləri və mənəvi ənənələri ilə birləşdirərək Azərbaycan xalqının ideologiyasının və fəlsəfəsinin təşəkkülünə təkan verirdilər.

XIX əsrin əvvəllərində Rusiya-İran müharibələri nəticəsində Azərbaycanın iki yerə parçalanması və Şimali Azərbaycanın Rusiya

tərəfindən işğalı məktəb təhsilinə də təsir etdi. Çar Rusiyasının Azərbaycanda təhsil sahəsində həyata keçirdiyi tədbirlər mahiyyətcə onun müstəmləkəçilik siyasətinin tərkib hissəsi idi. Lakin bununla belə, təhsil tarixində XIX əsr xüsusi yer tutur. Bu dövrdə təlim rus dilində olsa da, Azərbaycanda müxtəlif tipli dövlət təhsil müəssisələrinin (qəza ibtidai məktəbləri, müsəlman məktəbləri, gimnaziya və realnı məktəblər, rus - Azərbaycan məktəbləri, rus və müsəlman qız məktəbləri, dəmiryolu və sənət məktəbləri, seminariyalar, peşə və orta ixtisas məktəbləri və s.) yaranması xalqın mədəni səviyyəsinin yüksəlməsinə güclü təkan verdi. XIX əsrin II yarısından fəaliyyətə başlayan yeni tipli gimnaziya və realnı məktəblərini bitirən azərbaycanlı gənclərin böyük bir hissəsi Rusiya və Avropanın ali məktəblərində təhsil almaq imkanı qazandı.[1]

XIX əsrin I yarısında Azərbaycan məktəbinin inkişafında iki başlıca meyil özünü göstərdi: ənənəvi müsəlman təhsil formalarının saxlanması və yeni ibtidai rus məktəblərinin yaranması. Azərbaycanda "qəza məktəbləri" adlandırılan ilk dövlət məktəbləri 1829-cu və 1835-ci illərdə təsdiq edilmiş "Zaqafqaziya məktəbləri haqqında Əsasnamə"yə uyğun olaraq Şuşa (1830), Bakı (1832), Nuxa (Şəki, 1833), Gəncə (1837), Şamaxı və Naxçıvanda (1838) açılmışdı. Artıq XIX əsrin 50-ci illərində Azərbaycanda 9 rus məktəbi fəaliyyət göstərirdi. Onlardan 5-i qəza məktəbi idi.Qəza məktəbləri üçsinifli (I-II-III siniflər) idi. XIX əsrin 60-cı illərində Rusiyada aparılan məktəb islahatı, o cümlədən 1867-ci il "Əsasnamə"sinə görə Azərbaycandakı məktəblərin də imperiya daxilindəki tədris sisteminə uyğunlaşdırılmasına başlanıldı. Türk (Azərbaycan) dili tədris proqramlarından çıxarıldı, təhsilin məzmunundakı ruslaşdırma siyasəti daha da sərtləşdirildi.Bu dövrdə ümumtəhsil məktəbləri sistemində aparıcı yeri təlim rus dilində olan ibtidai məktəblər tutmağa başladı. XIX əsrin 70-ci illərində Azərbaycanın bütün qəza məktəbləri 6 illik təhsil müddəti olan şəhər məktəblərinə çevrildi. Bununla yanaşı, Azərbaycanda kənd məktəbləri də fəaliyyət göstərirdi.

XIX əsrin II yarısında Azərbaycanda kapitalist münasibətlərinin yaranması, iqtisadiyyatın sürətli inkişafı və sənayedə, kənd təsərrüfatında ixtisaslı fəhlələrə, mütəxəssislərə olan tələbat mövcud ümumtəhsil və peşə məktəbləri şəbəkəsinin genişləndirilməsinə təkan verdi. Bu dövrdə milli mənlik şüurunun formalaşdırılması məsələsi dövrün qabaqcıl ziyalıları,

[1]Muradov A. Ümumtəhsil məktəbinin strukturunun təşəkkülünə dair. Azərbaycan müəllimi. 2012. 13 aprel. S.2.

ədəbi xadimləri, müəllimləri tərəfindən qarşıya mühüm bir məsələ kimi qoyulmuşdu. Onlar milli mənlik şüurunun formalaşdırılmasına əxlaqi, mənəvi tərbiyənin mühüm tərkib hissələrindən biri kimi baxırdılar.

XIX əsrdə baş verən ictimai-siyasi hadisələr Osmanlı dövlətində milli özünüdərkin, milli özünəməxsusluğun təzahürünə imkan yaratdı. Milli rəmzlərə,adət-ənənələrə, artıq əsrlər boyu formalaşmış həyat tərzinə yenidən nəzər yetirildi.

Dövrün qarşıya qoyduğu tələblərə cavab verə bilməsi üçün dini etiqadların, İslami dünyagörüşün təhlilinə rəvac verildi. XIX əsrin mühüm hadisələrinə nəzər salsaq, Osmanlı dövlətinin ictimai-siyasi mühitində, elm və mədəniyyətində, maarif və təhsilində mühüm bir mərhələnin başlandığının şahidi olarıq. Osmanlı dövlətində də zaman yeni məktəb sisteminin yaradılmasını və gənc vətəndaşların yeni səviyyədə tərbiyəsini tələb edirdi.

XIX əsrdə Osmanlı dövlətində məktəb təhsili məktəb və mədrəsə ilə bağlı olmuşdur. Məktəb mahiyyətcə aşağı, mədrəsə isə yuxarı dərəcə hesab edilirdi.Məktəb bir növ mədrəsəyə hazırlıq rolunu oynayırdı. Aşağı dərəcəli məktəblər demək olar ki, Osmanlı dövlətinin bütün böyük və kiçik kəndlərində mövcud idi. Bir tərəfdən ruhani məktəblərinin geniş yayılması, onların heç bir idarəyə tabe olmaması, digər tərəfdən isə məktəblərin ayrı-ayrı məktəbdarların istək və arzusundan asılı olaraq açılması və bağlanması, Osmanlı dövlətində mövcud idarə üsulunun, bu məktəblərə etinasız münasibəti onların bir qayda olaraq, hesabatının düzgün aparılmasına imkan vermirdi. Tədris üsulunun müasir tələblərə cavab verə bilməməsinə, müasir tələblər baxımından təhsilin məzmunundakı çatışmazlıqlara baxmayaraq, bu məktəblərin bir sıra müsbət cəhətləri də var idi. Burada oxuyanlar klassik Şərq ədəbiyyatını yaxşı öyrənirdilər. Uşaq savadlanan kimi ona Hafizin, Füzulinin və başqa klassiklərin divanını oxudurdular. Məktəb və mədrəsələrdə də müasir Türk dili və ədəbiyyatının tədrisi kölgədə qalırdı. Bir qayda olaraq, yazı öyrədilməsi oxu təlimindən sonra başlanırdı.

Tənzimat dövründə (1839) Osmanlı dövlətində elm, mədəniyyət və maarif sahəsində dəyişikliklər baş verdi, bir sıra məktəb islahatları aparıldı. II Sultan Mahmuddan sonra hökmdarlıq edən Sultan Abdül-Məcid maarif sahəsində dəyişikliklər etdi. Sultanın imzaladığı “1847-ci ilin Direktivləri”nə müvafiq olaraq, məhəllə məktəblərinin proqramları əsaslı surətdə dəyişdirildi.

Tənzimat dövründə məktəblərin üç yeni tipi yaradıldı:

1. Rüşdiyyə-dörd illik ibtidai məktəblər;

2. Edadiyyə-orta və peşə təhsili davam etdirmək üçün hazırlıq pilləsi olan dörd illik məktəblər;

3. Sultaniyyə-altı illik məktəblər (rüşdiyyədən yuxarı olmaqla edadiyyəni də özündə birləşdirirdi. Bu, mahiyyət etibarilə ilk osmanlı liseyləri idi).

Tənzimatçılar uşağın türk və dindar olaraq böyüməsinə və müasir bir insan kimi yetişdirilməsinə çalışırdılar. Onların məqsəd və istəklərini tanınmış alim Ziya Göyalp "Milli tərbiyə və maarif məsələləri" adlı əsərində belə ifadə edirdi: "Hər hansı bir ata uşağının türkcə danışmamasına, türkcə oxuyub yazmamasına, türk tarixini bilməməsinə razı ola bilməz. Eyni zamanda, onun islam etiqadı və ibadətini bilməməsini, islam tarixindən bixəbər olmasını da qəbul edə bilməz. Bu ata uşağının türk və islam olaraq böyüməsini istədiyi kimi, müasir bir insan olaraq yetişməsini də arzu edər. O halda bizim üçün tam bir tərbiyə-türk tərbiyəsi, islam tərbiyəsi və əsrin tərbiyəsidir."

1839-cu ildə qəbul olunan Tənzimat Fərmanı ilə 1846-cı ildə "Mekatib-i Ümumi"yə nəzarət quruldu. 1848-ci ildə Darül-müəllim (Müəllimlər məktəbi) açıldı. 1868-ci ildə fransız dilində və ilk Avropa təhsili verə biləcək lisey ilə universitet arasında bir təşkilat-körpü rolunu oynayan "Qalatasaray" Sultaniyyəsi açıldı. 1869-cu ildə Fransız təhsil sistemini nümunə kimi tətbiq etməyə çalışan "Ümumi Maarif Nizamnaməsi" ("Maarif-i Ümumiyə Nizamnaməsi") nəşr olundu. 1870-ci ildə "Darül-müəllimat" - qız müəllim məktəbi açıldı. İlk dəfə ölkə xaricinə tələbə göndərildi. "Gəncləşən Türkiyə" üçün Qərbin mənəvi-əxlaqi dəyərləri getdikcə böyük əhəmiyyət kəsb edirdi.1856-cı il İslahat Fərmanının təhsillə bağlı tək maddəsində islam olmayan milli azlıqlara öz təhsil müəssisələrini qurmaq, müsəlman məktəblərinə daxil olmaq, təhsildə müstəqillik kimi hüquqlar verirdi. 1880-cı ildə ilk hüquq məktəbi açıldı. 1885-ci ildə İstanbuldan kənarda ilk edadiyyə fəaliyyətə başladı. 1891-ci ildə ibtidai və orta məktəblər üçün müəllim hazırlayan tədris müəssisələri Pedaqoji Kollecdə birləşdilər. Dünyəvi universitetin açılmasının taxt-tac üçün heç bir təhlükə yaratmayacağına əmin olan baş vəzir 1890-cı ildə universitetin yenidən açılmasına (dördüncü dəfə) icazə verdi.[1]

Gənc nəsil milli adət-ənənələrə sahib olaraq şəxsiyyət kimi formalaşır. İctimai-sosial mühit bu məsələdə həlledici amil kimi mühüm rol

---

[1]İhsanoğlu E. Osmanlı medeniyeti tarihi. C.II. İstanbul: Zaman Gazetesi Yayınları, 1999, s. 177.

oynayır. Təşəkkül tapıb formalaşmış əxlaqi hisslər özünütənzim, özünüdərk, özünəhörmət, özünüqiymətləndirmə aktlarına böyük təsir edir.

Qərb təhsilinin Türk təhsil sisteminə yol açması böyüməkdə olan nəsil üçün yeni əxlaqi-mənəvi dəyərlərin yaranmasına gətirib çıxardı. Avropa mədəniyyətinin təsiri ilə məscidlər yanında fəaliyyət göstərən mədrəsələrin ümumtəhsil fənləri də öyrədilən, müasir tələblərə cavab verəcək məktəblərə çevrilməsi sahəsində müəyyən addımlar atılmağa başlandı.

Birinci fəslin ***"XX əsrin 20-90-ci illər Azərbaycan və Türkiyə məktəblərində əxlaqi-mənəvi tərbiyənin əsas aspektləri"*** adlı üçüncü yarımfəsli isə XX əsrdə hər iki qardaş ölkə məktəblərində əxlaqi-mənəvi tərbiyənin özünəməxsus dəyərlərini və inkişaf istiqamətlərinin müəyyənləşməsi haqqında məlumat verir. Burada qeyd olunur ki, əxlaq normaları, həmçinin əxlaqi əqidələr, əxlaqi hisslər və dəyərlər spesifik xüsusiyyətlərə malikdir. Əxlaqi borc-doğma vətənimizin tərəqqisi uğrunda mübarizə zərurətindən yaranan və yüksək şüurluluq, dərin daxili tələbat qüvvəsi ilə yerinə yetirilən əsas ictimai vəzifələrin məcmusudur. Onun məzmununa həm cəmiyyətin öz üzvləri qarşısında irəli sürdüyü vəzifələr, həm də adamların cəmiyyət qarşısında daşıdığı məsuliyyət hissi daxildir. Hər bir cəmiyyətin inkişafının müxtəlif mərhələlərində onun qarşısında müxtəlif vəzifələr durur. Buna uyğun olaraq cəmiyyətin öz üzvlərinə olan tələbinin, eyni zamanda cəmiyyət üzvlərinin borcunun xarakteri dəyişir. Elə ona görə də ictimai inkişaf qanunlarını öyrənmədən, cəmiyyətin qarşılaşdığı vəzifələrin həllində iştirak etmədən şəxsiyyət öz əxlaqi borcunu dərk edə bilməz.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı bir şəraitdə qarşısında duran mühüm vəzifələrdən biri məktəb sisteminin dağıdılmasını dayandırmaq, maarif sisteminin işini xalqın milli mənafelərinə xidmət etməyə yönəltmək, onu dövlətçiliyin tələblərinə uyğun şəkildə yenidən qurmaq idi. Bu sahədə onun atdığı ilk addım təhsil müəssisələrinin milliləşdirilməsi oldu. Məktəb şəbəkəsinin bərpa edilməsi məqsədilə hökumət onun maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəb binalarının təmiri, bərpası və yeni məktəblərin tikintisi üçün vəsait ayrılması üzrə tədbirlər görürdü. Nazirliyin göstərişi ilə müxtəlif qəzalarda məktəblərin bərpa edilməsinin smetaları hazırlanıb təqdim olunurdu. Zaqatalada, Göyçay və Şuşa qəzalarında, başqa yerlərdə yeni məktəblər açılırdı.

Azərbaycan hökumətinin ən mühüm təşəbbüslərindən biri-əlifba islahatı da onun maarifçilik fəaliyyətinin və xalq təhsili üzrə proqramlarının reallaşdırılmasına xidmət edirdi. Azərbaycan hökuməti təhsil sistemini kökündən yeniləşdirmək üçün pedaqoji kadrların hazırlanmasına birinci

dərəcəli əhəmiyyət verirdi. Pedaqoji kadrlara olan ehtiyacın ödənilməsi üçün Maarif Nazirliyi tərəfindən hər il respublikanın müxtəlif məntəqələrində dörd seminariya açılması nəzərdə tutulurdu. Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsi Qazax şəhərinə köçürüldü və müstəqil seminariyaya çevrildi. 1919-cu il sentyabrın 1-də Parlament Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi.

XX əsrin əvvəllərində Türkiyə dövlətində də təhsil sitemində müəyyən yeniliklərin tətbiqinə maraq artmaqda idi. Bu mərhələdə xüsusilə fərqli strukturlara sahib olan məktəblərdən yetişən insanlar arasındakı mədəniyyət və dünyagörüşü arasındakı fərqlər, tərbiyə və əxlaqda baş verən böhranın səbəbləri və onun aradan qaldırılması üçün müxtəlif müzakirələrə də yol açıldı. Bu mövzular çərçivəsində dini təhsil verən məktəblər, bu məktəblərdə verilən təhsil və müəllim heyəti haqqında da müzakirələr aparılırdı.

1917-ci ildə Osmanlı Türkiyəsinin maarif naziri olmuş Şükrü bəy ibtidai təhsilin büdcəsindən danışarkən təhsilin dininə bağlı, Vətənini sevən, millətinə ürəkdən bağlı olan şəxsin yetişdirməsi sahəsindəki məqsədini ortaya çıxarmışdı. Əxlaqi dəyərlərin tərbiyəsi sahəsində Ziya Göyalp milli dəyərləri ön plana çəkmiş və onu əxlaqi görüş və davranışların tərbiyəsi ilə birləşdirməyə çalışmışdır. O, Qərbin elminə qovuşmaq istiqamətində cəmiyyətin bilik və savada olan ehtiyacını ödəmək üçün dini və milli əxlaqi dəyərlərin birləşdirilməsini vacib hesab edirdi.[1]

Cümhuriyyətin yaradıldığı illərdə Atatürkün təhsil haqqındakı fikirləri öz təsirini göstərmiş və tətbiq olunmuşdur. Atatürkə görə dini təhsil ancaq milli dəyərlər tərəfindən dəstəklənir və xurafatdan təmizlənərək tətbiq olunarsa, cəmiyyətdəki fərdlərin əxlaqlı olmasına təsir edə bilər.

Cümhuriyyət dövründə məktəblərdə dini təhsilin verilməsi məsələsi də ortaya qoyuldu. İbtidai məktəblərdə əvvəlcə proqramdan kənar, sonralar isə orta məktəblərdə və liseylərdə yer verilən din dərsləri əxlaqi dəyərlərin tədrisi ilə birlikdə aparılmışdır. Cümhuriyyət dövründə təhsilin başlıca məqsədi hər səviyyədən olan məktəblərdə Cümhuriyət rejiminin tələb etdiyi və yeni Türkiyənin ehtiyac duyduğu nəsillər yetişdirmək olmuşdur.

Türkiyə təhsil sisteminin aşıladığı əxlaqi-mənəvi dəyərlər gənclərə təlqin edirdi ki, dünyada hər şey üçün, mənəviyyat üçün, həyat üçün ən

---

[1] Kesgin S. Cumhuriyet Dönemi Örgün Eğitim Kurumlarında Ahlak Eğitimi / Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi.-2011, 52:1, s. 209.

doğru yol göstərən elmdir, texnikadır. Qadının ən böyük vəzifəsi analıqdır. İlk təhsil verilən yerin ana qucağı olduğu düşünülərsə, bu vəzifənin əhəmiyyəti layiqincə öz ifadəsini tapmış olar. Daha dürüst yürüyəcəyimiz bir yol vardır. Hamını bu yola qoşmaq və namusla, ləyaqətlə yürümək lazımdır. Maariflənmə millətin həqiqi qurtuluşu deməkdir.

Atatürkün vəfatından bir il sonra, 1939-cu ildə Ankarada xalq təhsili üzrə birinci qurultay çağrıldı. Əvvəlcə respublikada ottoman sistemi-(3+3+3+3) sistemi, daha sonra (6+3+3) sistemi, daha sonralar isə 5+3+3 sistemi tətbiq edildi. Beşillik ibtidai məktəb üçillik ibtidai və üçillik rüşdiyyəni əvəz etdi, üçillik edadiyyə isə orta məktəb oldu. Sultaniyyə isə lize (lisey) adlandırılmağa başlandı. Dünyəviləşdirmənin və aqrar çoxluğun əleyhinə çıxış edən Demokratik Partiya 1950-ci ilin mayında seçkilərdə qələbə çaldı və hakimiyyətə gəldi. Həmin ildən məktəb proqramına yenidən dini fənlər daxil edildi. 1955-1957-ci illərdə islam və etika üzrə kurslar orta məktəblərin, 1966-1967-ci illərdə isə fakultativ kurs kimi liseylərin proqramlarına yenidən daxil edildi.[1]

1974-1975-ci dərs ilində ibtidai məktəblərin 4-5-ci, orta məktəblərin 1,2 və 3-cü, liseylərin 1-2-ci siniflərində əxlaq dərsi tədris edildi. 1975-1976-cı dərs ilində şagirdlərin öz istəyi üzrə orta məktəb və liseylərin son sinfində dini dərslər, liseylərin son sinfində isə həm də əxlaq dərsləri keçilməyə başladı. 1973-ci il tarixli Milli Təhsil Təməl Qanunu milli təhsilin qarşısında Atatürk inqilab və prinsiplərinə və Konstitusiyada ifadəsini tapan Atatürk milliyyətçi-liqasına bağlı, Türk millətinin milli, əxlaqi, insani, mənəvi və mədəni dəyərlərini mənimsəyən, qoruyan və inkişaf etdirən; ailəsini, vətənini, millətini sevən və daim yüksəltməyə çalışan; insan hüquqlarına və Konstitusiyanın başlanğıcındakı əsas prinsiplərə söykənən demokratik, dünyəvi, sosial bir hüquq dövləti olan Türkiyə Respublikasına qarşı vəzifə və məsuliyyətlərini bilən və bunları davranış halına gətirmiş vətəndaşlar olaraq yetişdirmək vəzifəsi olduğunu bildirdi.[2]

SSRİ-nin süqutu və Azərbaycanın müstəqilliyə qovuşması ərəfəsində Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Sovet Sosialist Respublikası arasında 1990-1992-ci illər dövründə mədəni və elmi mübadilə protokolu ilkin rəsmi sənədlərdən sayıla bilər. Türkiyə Cümhuriyyəti hökuməti ilə Azərbaycan Sovet Sosialist Respublikası hökuməti, Türkiyə Cümhuriyyəti

---

[1] Rüstəmov F.A. Ən yeni dövrün pedaqogika tarixi: XX əsr - XXI əsrin əvvəlləri.- Bakı: Nurlan, 2005, s. 158.

[2] Rüstəmov F.A. Ən yeni dövrün pedaqogika tarixi: XX əsr - XXI əsrin əvvəlləri.- Bakı: Nurlan, 2005, s. 158.

ilə SSRİ arasında imzalanmış olan “1989-1990-cı illər Kültürəl və Bilimsəl Dəyişim Proqramı”nın hökumətlər tərəfindən inkişaf etdirilməsi və aralarındakı elmi və mədəni əməkdaşlığın qüvvətləndirilməsi məqsədilə, 1990-1992-ci illər üçün mədəni və elmi mübadilə protokolu imzalanmışdır.[1]

Azərbaycan-Türkiyə arasında hələ 80-ci illərin sonlarından başlanan və 90-cı illərin əvvəllərindən etibarən geniş vüsət alan təhsil əlaqələri bu gün daha sürətli və dinamik inkişaf tempi qazanmaqdadır. Müstəqillik əldə olunandan keçdiyi bu müddət ərzində bir çox sahələrdə olduğu kimi təhsil sahəmizdə də müəyyən islahatlar aparılmışdır. Bu gün həm Azərbaycan təhsili, həm də Türk təhsil sistemi daima inkişaf etmək, bəşəriyyətin yaratdığı müsbət və xeyirxah əxlaqi-mənəvi dəyərlərə malik olmaq məqsədilə “Türkləşmək, islamlaşmaq, avropalaşmaq”- deyərək milli ideoloji fikir və baxışlarda, milli-demokratik ideyaların formalaşmasında əsaslı dəyişiklik və irəliləyişlərə nail olmaq üçün birləşməyə can atır.

Tədqiqat işinin ikinci fəsli **“Müasir Azərbaycan və Türkiyə məktəblərində şagirdlərin əxlaqi-mənəvi tərbiyəsinə münasibətin yenilənməsi məsələləri”** adlanır. Həmin fəslin ***“XX əsr Azərbaycan və Türkiyə məktəblərində şagirdlərin əxlaqi-mənəvi tərbiyəsinə münasibətin yenilənməsi zərurəti və nəticələri”*** adlanan birinci yarımfəslində qeyd olunur ki, 1980-cı illərin sonlarından Azərbaycanda və onun daxil olduğu Sovetlər İttifaqında ictimai-siyasi böhran gücləndi. Azərbaycan-Ermənistan münasibətlərində baş verən kəskin pisləşmə, Dağlıq Qarabağ münaqişəsi, 1991-ci ildə SSRİ-nin süqutu, Dağlıq Qarabağ münaqişəsi, Dövlət İdarəçiliyində baş verən ziddiyyətli dəyişikliklər təhsil sistemində də böhranın yaranmasına gətirib çıxardı.

İctimai həyatda baş verən hadisələr şagirdlərin həyata baxışlarında dəyişikliklər yaratdı. Doğma torpaqlar uğrunda gedən döyüşlərdə iştirak, müstəqillik ideyasını reallaşdırmaq arzuları şagirdlərdə sahiblik istəyinin aşılanmasına təkan verdi. Uzun illər ərzində şablonlaşmış pedaqoji prinsiplər artıq kənara atılır, yenilərinin yaranmasına tələbat meydana çıxırdı. Bu dövrdən etibarən vətənpərvərlik, torpağa, yurda bağlılıq, düşmənə nifrət kimi hisslərin aşılanması, milli adət-ənənəyə, milli-mədəni dəyərlərə sahiblik etmək hissinin tərbiyəsi vacib məsələ kimi ortalığa çıxdı. 1993-cü ildən etibarən Azərbaycan xalqının ümummilli lideri olan Heydər Əliyev bu ölkədə rəhbərliyi qəbul etdikdən sonra təhsildə yalnız struktur

---

[1] Hüseynova F.İ. Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil. Mədəniyyət). Bakı: Elm, 2007, s.102.

dəyişiklikləri deyil, şəxsiyyətin inkişafına kömək edən bir sıra tədbirlər də həyata keçirilməyə başladı. Humanizm, demokratiya, tədrisin şəxsiyyətyönümlülüyü, milli və ümumbəşəri dəyərlərə hörmət, vətəndaşlıq tərbiyəsi, şəxsiyyətin azad inkişafı, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət kimi konseptual prinsiplər əsasında Azərbaycanda müasir təhsil sistemi inkişaf etməyə başladı. Artıq 90-cı illərin ortalarından etibarən bir çox beynəlxalq təşkilatlar (məsələn, Dünya Bankı, SOROS ayrı-ayrı layihələrlə Azərbaycanda təhsilin ayrı-ayrı problemlərinin həllinə, mövcud ənənəvi sistemin, təlim metod və texnologiyalarının, təhsilin məzmununun, qiymətləndirmənin və digər sahələrin yeniləndirilməsinə girişdilər. Beləliklə, milli pedaqoji anlayışlar sırasına treninq, monitorinq, əqli hücum, kurikulum və digər islahatlar daxil oldu.

XX əsrin 90-cı illərin sonlarından etibarən Azərbaycan məktəblərində əxlaqi-mənəvi tərbiyədə, böyüməkdə olan nəslin mənəvi kamilləşməsində təhsilin fasiləsizliyi və hərtərəfliliyi ideyasına çox böyük əhəmiyyət verilir. Professor Ə.Ağayevin göstərdiyi kimi, "fasiləsizlik-... ibtidai məktəb təhsilindən (savad təlimindən) başlanır, ustadlar, mütəfəkkirlər, alimlər, sənətkarlar yanında, akademiyalarda, digər yüksək tipli təhsil müəssisələrində təhsillə davam etdirilir, yeni ixtisas-peşə, fəlsəfi fikir öyrənmələri, qazanılması ilə genişləndirilir, şəxsi təhsillə tamamlanır."[1] Bu dövrdə Azərbaycan xalqının ümumilli lideri, 1993-cü ildən 2003-cü ilədək Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin təhsil sahəsində yeritdiyi uğurlu siyasət gənc nəslin zəngin mənəviyyata malik olmalarında mühüm rol oynadı.

Bu fəslin ***"Azərbaycan və Türkiyədə həyata keçirilən təhsil islahatlarında şagirdlərin əxlaqi-mənəvi tərbiyəsinin yeri (sənədlərdə, dərslik və dərs vəsaitlərində)"*** adlanan ikinci yarımfəslində göstərildiyi kimi Ulu öndərin imzaladığı "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2003-cü il tarixli fərman isə təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsi, idarəetmənin müasir prinsiplər üzrə təşkili, onun beynəlxalq standartlara uyğunlaşdırılması və dünya təhsil sisteminə inteqrasiyası üçün zəmin rolu oynadı. Bu sənəd şagirdlərin əxlaqi-mənəvi tərbiyəsində dünya tərbiyə təcrübəsindəki dəyərlərlə tanışlığına imkan yaratdı. Təhsildə keyfiyyətin ön plana çəkilməsi, böyüməkdə olan nəslin dünyagörüşünü genişləndirməyə kömək

---

[1] Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005, s.250.

edən fundamental təhsilin inkişafına zəmin yaratdı. Şagirdlərin ictimai-əxlaqi keyfiyyətlərinə təsir edən təhsilinin səviyyəsini yüksəltdi.[1]

Ümummilli lider Heydər Əliyevin mənəvi-siyasi irsinin varisi İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilində görülən işlər milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına, bu milli xəzinə əsasında gənclərin mənəvi-əxlaqi tərbiyəsinə böyük təsir göstərmişdir.

Prezident İlham Əliyevin 12 aprel 2007-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007-2010-cu illər)" qəbul edildi. Bu Proqramda nəzərdə tutulan maddələr uşaqların gələcəkdə əsl vətəndaş kimi böyümələri üçün məktəbəqədər müəssisələrin fəaliyyət imkanlarını genişləndirdi.

2006-cı ildə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədi yeni tədris standartlarının hazırlanmasına, ibtidai siniflərin yeni kurikulumla fəaliyyətə başlamasına kömək etdi. Təhsilin məzmununun yeniləşdirilməsi istiqamətində işlər görüldü. Həmin işlər bu gün də davam etməkdədir. "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı", "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı", "Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması", "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiyanın hazırlanması", "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" ilə əlaqədar Prezident İlham Əliyevin fərman və sərəncamları Azərbaycanda təhsilin modernləşməsinə yaxından kömək edir.[2]

Bu sənədlər Azərbaycanda təhsilin beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratdı, şagirdlərin əxlaqi-mənəvi tərbiyəsində dünya tərbiyə təcrübəsindəki müsbət əxlaqi-mənəvi dəyərlərlə tanışlığa kömək etdi. Təhsilin keyfiyyətinin yenilənməsi böyüməkdə olan nəslə imkan verdi ki, onların dünyagörüşünün genişləndirməsində mühüm rol oynayan müasir mənəvi-

---

[1] Əhmədov H.M. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Azərnəşr, 2010, s. 77.

[2] Əhmədov H.M. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Azərnəşr, 2010, s. 57.

əxlaqi dəyərlərlə tanış olsunlar və onlara yiyələnsinlər. Milli ruh, milli kök üzərində dayanan təhsil yeni əsrin tələblərinə uyğunlaşdı.

Mənəvi-əxlaqi dəyərlər haqqında təsəvvürlər mövcud birgəyaşayış qaydalarına, ənənələrə, adətlərə riayət etməyin zəruriliyini dərk etməkdə şagirdlərə köməklik göstərir. İnsanpərvərlik, Vətən sevgisi, etibar, inam, əməldə və fikirdə intizam, səxavət, əməksevərlik, xoş rəftar, dəyanət, səbr, etiqad və s. bu kimi anlayışların verilməsi şagirdlərin əxlaqi davranışına müsbət təsir göstərir. Tapşırıqların şagird şəxsiyyətinə yönəldilməsi onların təbiətə və cəmiyyət işlərinə qayğı ilə yanaşmaq haqqında təsəvvürlərini formalaşdırır. Onlarda öz əməllərinə, öz işlərinə məsuliyyətlə yanaşmaları barədə təsəvvürlər oyadır. Milli-əxlaqi dəyərlərlə, şagirdlərin mənəvi zənginliyi ilə bağlı materiallara ədəbiyyat və ana dili, tarix dərsliklərində daha çox rast gəlinir.

Tədqiqat işinin ikinci fəslinin sonuncu yarımfəsli isə ***"Azərbaycanda və Türkiyədə əxlaqi-mənəvi tərbiyə sahəsində problemlər və onların aradan qaldırılması yolları"*** adlanır. Bu fəsildə əxlaqi-mənəvi tərbiyə sahəsində Azərbaycanda və Türkiyədə mövcud problemlər və onların aradan qaldırılması yollarından söhbət açılır. Əxlaqi-mənəvi dəyərlərin təbliği bu ölkələrin məktəblərində tədris edilən ədəbiyyat və tarix fənni dərslərində, dini dünyagörüşünün düzgün şəkildə təbliği məsələləri isə Türkiyə Respublikasında imam-xətib məktəblərində həyata keçirilir və aşağıdakı istiqamətlərdə özünü göstərir:

1. Türk millətinin milli, əxlaqı, mənəvi və mədəni dəyərlərini mənimsəyən, müdafiə edən, ailəsini, Vətənini, millətini sevən və daima ucaltmağa çalışan, insan haqlarına və Konstitusiyaya əsaslanan demokratik və sosial bir hüquqi dövlət olan Azərbaycan və Türkiyə Cümhuriyyətində vəzifə və borclarını bilən və bunları normal davranış normalarına çevirən vətəndaşların yetişdirilməsi;
2. Fiziki, əxlaqi, dünyagörüşü baxımından şüurlu və sağlam olan, milli-mədəni dəyərləri mənimsəyən, insan haqlarına və cəmiyyətə hörmətlə yanaşan istedadlı insanların yetişdirilməsi;
3. Özlərini və yaşadıqları cəmiyyəti də xoşbəxt edə biləcək yüksək əqidə sahiblərinin tərbiyə olunması məqsədinin qarşıya qoylması.

Azərbaycan və Türkiyə təhsil əlaqələri bu gün də davam və inkişaf etməkdədir. Hər iki ölkənin müəllim heyəti gənc nəslin əxlaqi-mənəvi tərbiyəsində əllərindən gələni əsirgəmirlər. Azərbaycanda təhsil nailiyyətlərinin qazanılmasında Türkiyə Cümhuriyyəti ilə razılıq əsasında açılmış özəl məktəblərin xüsusi rolu olmuşdur. Bu məktəblərin Azərbaycanda fəaliyyətə başlaması, zəngin, səmərəli təcrübə qazanaraq,

fəaliyyətini genişləndirməsi, ilk növbədə, Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 avqust 2005-ci ildə "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Bu proqramın məqsədi gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati-hüquqi şərait yaratmaqdır. Dövlət Proqramının məqsədinə uyğun olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– gənc nəslin vətənə məhəbbəti, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması;

– gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi, onların hərbi xidmətə hazırlanması;

– gənclər arasında huquq pozuntularının, narkomaniyanın və digər zərərli vərdişlərin profilaktikası sahəsində tədbirlərin həyata kecirilməsi; – istedadlı gənclərin aşkar edilməsi, onların öz qabiliyyətlərini inkişaf etdirə bilmələri üçün şəraitin yaradılması;

– gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnməsi, peşə hazırlığının yüksəldilməsi və məşğulluğunun təmin edilməsi məqsədi ilə tədbirlərin həyata keçirilməsi;

– sosial müdafiəyə ehtiyacı olan gənclərin, o cumlədən gənc ailələrin problemlərinin həllinə köməklik göstərilməsi;

– gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin həyata kecirilməsi, kutləvi bədən tərbiyəsinin və idmanın inkişaf etdirilməsi;

– ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı, uşaq və gənclər uzrə təşkilatın formalaşması və inkişafı üçün şəraitin yaradılması; və s.[1]

Azərbaycan Gəncliyi Dövlət Proqramı aşağıdakı məsələləri əks etdirir:

1. Gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi;
2. Gənclər arasında huquq pozuntuları, narkomanlıq, QİÇS və digər neqativ halların profilaktikası;
3. İstedadlı və yaradıcı gənclərə dövlət qayğısı;
4. Gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və məşğulluğun təmin edilməsi;
5. Gənc ailələrə dövlət yardımı;

---

[1] Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi-www. ...https://fakultemiz.wordpress.com

6. Ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakı üçün şəraitin yaradılması. Uşaq və gənclər təşkilatına dövlət yardımı;

7. Gənclərin beynəlxalq əməkdaşlığının və turizmin inkişafı.[1]

Azərbaycanda narkomaniya və AİDS-lə bağlı geniş tədbirlər sistemi həyata keçirilir. Bu tədbirlərdə məktəblilərə, tələbə gənclərə narkomaniya, narkotiklər, onların insanlara vurduğu mənəvi ziyan haqqında məlumat verilir. Tədbir təhsil ocaqları, polis orqanları və kitabxanaların hər hansı biri tərəfindən hazırlandıqda, həmin təşkilatların nümayəndələri orada iştirak edir və cəmiyyətin bəlasına çevrilmiş bu ağır hadisə haqqında məlumat verirlər. Yadda saxlamaq lazımdır ki, cəmiyyətə zidd hərəkətlərin səbəbləri, ilk növbədə, insanın hüquqi şüurunun aşağı səviyyədə olması ilə, cəmiyyət və hüquq haqqında yanlış təsəvvürləri ilə, şəxsiyyətlə cəmiyyət arasında, onların tələbləri arasında pozulmuş münasibətlərlə, boş vaxtdan səmərəsiz istifadə ilə, insanın yaşadığı mühitdəki mənəvi və psixoloji boşluqların olması ilə şərtlənir.

Son illərdə Türkiyə narkomaniyaya qarşı mübarizəni sərtləşdirib. Ölkədə narkomaniya ilə mübarizə tədbirləri çərçivəsində psixotrop preparatların reseptsiz satışının qadağan olunnası nəzərdə tutulur. Türkiyə Respublikasının 2010-2012-ci illər üçün narkotiklərlə mübarizə üzrə milli strategiyası kompleks xarakter daşıyır və beş istiqamətdə özünü göstərir: koordinasiya, təkliflərin məhdudlaşdırılması, sorğunun azalması, beynəlxalq əməkdaşlıq, o cümlədən, informasiya / təhqiqat / qiymətləndirmə. Gənclərin intellektual səviyyələrinin yüksəldilməsi, onların dünyagörüşünün artırılması əsas məsələlərdən biridir. Şəxsiyyətin formalaşması sisteminə kompleks yanaşma vahid tərbiyə vəzifələrini yerinə yetirən müxtəlif sosial institutların-ictimai, siyasi, hüquqi, mədəni-maarif müəssisələrinin fəaliyyətini birləşdirməyə və razılaşdırmağa imkan verir. Şəxsiyyətin vahid tərbiyə prosesinin tərkib hissələrindən olan əxlaqi tərbiyə insanın bütün tərəflərini əhatə edir və hərtərəfli inkişafında böyük rol oynayır. Hüquq tərbiyəsi şəxsiyyətin ahəngdar inkişafına yönələn ideya-tərbiyə işləri kompleksinin mühüm bir istiqamətini təşkil edir. İnsanın şüur və davranışı vəhdətdə olub, bir-birini şərtləndirir.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas vermişdir:

1. Azərbaycan-Türkiyə məktəblərində şagirdlərin əxlaqi-mənəvi tərbiyəsində qədim dövrlərdən başlayaraq ortaq cəhətlər vardır.

---

[1] Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi-www. ...https://fakultemiz.wordpress.com

2. Hər iki xalqın mənəvi-əxlaqi tərbiyə təcrübəsi qədim dövrlərdən başlayaraq müasir günümüzə qədər olan böyük bir tarixi dövrü əhatə edir;

3. Hər iki ölkənin təhsil siyasətində mənəvi-əxlaqi dəyərlərin milli adət-ənənələrə, soykökünə əsaslanmaqla qorunması əsas yeri tutur;

4. Müasir Azərbaycan və Türkiyə məktəblərində şagirdlərin əxlaqi-mənəvi tərbiyəsinə münasibətin yenilənməsinin zərurət olduğu başa düşülür və təhsil müddətində, dərsliklərin hazırlanmasında buna ciddi dəyər verilir;

5. Azərbaycanda və Türkiyədə əxlaqi-mənəvi tərbiyə sahəsində problemlər və onların aradan qaldırılması yolları dövlət tərəfindən işlənib hazırlanır və bu məsələ dövlətin, o cümlədən onun təhsillə bağlı qurumlarının nəzarəti altındadır;

6. Azərbaycan və Türkiyənin milli təhsil konsepsiyaları gələcəyin türk insanını tərbiyə edir, onların əsl vətənpərvər və vətəndaş kimi yetişmələrinə şərait yaradır.

Beləliklə, Azərbaycan və Türkiyədə təhsilin hərtərəfliliyi, fasiləsizliyi, müasir tələblərə cavab verməsi böyüməkdə olan nəslin şəxsiyyət kimi ahəngdar inkişafında və kamilliyində çox böyük əhəmiyyət daşıyır.

Tədqiqat zamanı görülən işlərə əsasən aşağıdakı təkliflər vermək mümkündür:

1. Əxlaqi-mənəvi dəyərləri əks etdirən ortaq dərsliklərin və digər vəsaitlərin nəşri faydalı olar;

2. Türkiyə və Azərbaycan ümumtəhsil məktəblərinin təcrübəsinin qarşılıqlı olaraq öyrənilməsi, qarşılıqlı praktik əlaqələrinin həyata keçirilməsi hər iki ölkənin şagirdləri üçün faydalı olar;

3. Türkiyədə və Azərbaycanda əxlaqi-mənəvi tərbiyə məsələlərinə həsr olunmuş əsərlərin qarşılıqlı şəkildə hər iki ölkədə nəşr edilməsi faydalı ola bilər.

4. Türkiyə və Azərbaycan pedaqoji fikrinin vahid antologiyasını nəşr etmək gənclərin milli tərbiyəsində əhəmiyyətli rol oynaya bilər.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. Bəxtiyar Vahabzadə əsərlərində İslam dininə və milli-əxlaqi dəyərlərə münasibət / Qafqaz Universiteti I Beynəlxalq Bəxtiyar Vahabzadə Simpoziumu materialları, 2012,s.358-361

2. Toplumun bir üyesi olarak gerçek öğretmen / Azərbaycan Dövlət Pedaqoji Universiteti, Hacəttəpə Universiteti, Qafqaz Universiteti, Ümummilli Lider Heydər Əliyevin Anadan Olmasının 90-cı ildönümünə

həsr olunmuş müəllim hazırlama siyasəti və problemləri Beynəlxalq Simpoziumu materialları, 2013, s.249

3. Mehmet Akif'e göre ahlaki ve manevi Yücelik / AMEA Nəsimi adına Dilçilik İnstitutu və Qafqaz Universiteti, Əli Bəy Hüseynzadənin 150 və akademik Məmmədağa Şirəliyevin 105 illik yubileyləri şərəfinə keçirilən "Sələflər və Xələflər" I Beynəlxalq simpoziumu materialları, 2014, s.528-533

4. Orta əsrlərdə Azərbaycan və Türkiyə məktəblərində əxlaqi-mənəvi tərbiyə məsələləri // Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi Xəbərləri, 2014, № 1, s.200-205

5. Azərbaycanın təhsil sistemi və əxlaqi-mənəvi dəyərlər // Bakı Qızlar Universitetinin Elmi Əsərləri, 2014, № 3(19), s.136-142

6. Milli kurikulum və əxlaqi-mənəvi dəyərlər // Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2015, № 2, s.243-247

7. Değerler Eğitiminde Öğrencilere Vatanseverliliğin Aşılanması / Azərbaycan Dövlət Pedaqoji Universiteti, Hacəttəpə Universiteti, Qafqaz Universiteti, Ümummilli Lider Heydər Əliyevin Anadan Olmasının 92-cı ildönümünə həsr olunmuş müəllim hazırlama siyasəti və problemləri Beynəlxalq Simpoziumu materialları, 2015, s.278-281

8. İlk ve Ortaokul yöneticilerinin yetiştirilmesi ve geliştirilmesi konusunda öğretmen görüşleri / Azərbaycan Dövlət Pedaqoji Universiteti, Hacəttəpə Universiteti, Qafqaz Universiteti, Ümummilli Lider Heydər Əliyevin Anadan Olmasının 92-cı ildönümünə həsr olunmuş müəllim hazırlama siyasəti və problemləri V Beynəlxalq Simpoziumu materialları, 2015, s.98-105

9. Öğrencilere benimsetilen ahlaki ve manevi değerler ile Okul'un görevleri / Qafqaz Universiteti, Gənc Tədqiqatçıların III Beynəlxalq Konfransı materialları, 2015, s.1243

10. Qiymətləndirmənin şagirdlərin əxlaqi-mənəvi tərbiyəsindəki rolu / Bakı Dövlət Universiteti, Ümummilli Lider Heydər Əliyevin 92 illik yubileyinə həsr olunmuş "Təhsilin inkişaf strategiyası və onun reallaşdırılması"mövzusunda VII Resbuplika elmi-praktik konfransı materialları, 2015 s.486-487

11. Роль примера в морально-нравственном воспитании щкольников // Gileya University "Science of phlosophy" № 61-62, 2015, s.92-97 Ukraine.

12. Müasir Türk təhsil sistemi və yeni nəslin tərbiyəsi məsələləri // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2015, № 2, s.4-8

13. Şagirdlərin əxlaqi-mənəvi tərbiyəsinin təşkilinin yolları və imkanlarına ümumi baxış // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2015, № 3, s.9-13

14. XIX əsrdə Türkiyə məktəblərində əxlaqi-mənəvi tərbiyə tarixindən // ADİU-nun Elmi Xəbərləri, 2015, № 2, s.215-220

15. Current Problems of Moral Education in Secondary School // International Journal of Educational Research and Technology, India, Vol. 6 [3], 2015, s.1-7

**M.A.Chinar**

**Means and ways of formation of moral - ethical values of secondary school pupils (on the base of school materials of Turkey and Azerbaijan)**

## SUMMARY

The thesis consists of the introduction, two chapters, conclusion and references.

The urgency of the theme, its object and subject of study, the purpose and tasks, methodology, theoretical and practical importance are substantiated, and main provisions brought up for defense and its approbation are presented as well.

The first chapter is called "Objectives and general features of the moral and spiritual education of pupils at schools of Azerbaijan and Turkey." It reveals the history and the basic problem of moral and spiritual education of the younger generation in both countries.

The second chapter is titled "Update Issues to do with the moral and spiritual education of the students in today's schools of Azerbaijan and Turkey." It addresses the educational reforms in the moral and spiritual education of pupils in the schools of modern Turkey and Azerbaijan, as well as possible ways of overcoming potential problems.

Key provisions of the study dissertation are set out in the Conclusion.

**М.А.Чинар**

# ВОЗМОЖНОСТИ И ПУТИ ФОРМИРОВАНИЯ МОРАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ У УЧАЩИХСЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ (на основе материалов школ Турции и Азербайджана)


## Резюме

Диссертация состоит из введения, двух глав, трех параграфов, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность, объект, предмет, цель и задачи, гипотеза, методологические основы, теоретическое, практическое значение, выносимые на защиту основные положения и апробация проведенного исследования.

Первая глава под названием «Задачи и общие черты морально-нравственного воспитания учащихся в школах Азербайджана и Турции» раскрываются задачи морально-нравственного воспитания учащихся общеобразовательных школ в обеих странах.

Вторая глава «Вопросы отношения учащихся к обновлению морально-нравственного воспитания в современных школах Азербайджана и Турции». В ней рассматриваются отношения учащихся к современным духовно-нравственным ценностям в школах Азербайджана и Турции, а также возможные пути преодоления имеющихся проблем.

В заключении изложены основные выводы, полученные в результате исследования.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**Мехмет Чинар Али**

# ВОЗМОЖНОСТИ И ПУТИ ФОРМИРОВАНИЯ МОРАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ У УЧАЩИХСЯ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ
## (на основе материалов школ Турции и Азербайджана)

**5804.01 – Общая педагогика, история педагогики и образования**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Баку – 2015**